# Daim xatırlanacaq insan...

Həyat bir tuneldir. Odur ki, orada nə dayanacağın, nə də fasilənin olmadığını hər an xatırlayırıq. Xoşbəxt olmaq üçün məktəbi bitirməyimizi, ali təhsil almağımızı, bu gün gözəl görünmək üçün yiyələndiyimiz peşə üzrə xalqımıza xidmət etməyi özümüzə borc bilməliyik. Bunun üçün qışın bitib yazın gəlməsini gözləməməliyik.

Həyat davam edən bir yoldur. Problemlərin birinin digəri ilə əvəz olunduğu, lakin son stansiyanın harada tamamlandığını bilmədiyimiz bir yol. Xoşbəxtlik isə bu yolda görə biləcəyimiz, duya biləcəyimiz, yaşaya biləcəyimiz anlar toplusudur. Bu anlar hər kəs üçün müxtəlif ola bilər.

Həbibov Vaqif Xəlil oğlu da bu həyat yolunun yolçusu idi. Gəlin, yaxından tanış olaq. O, 1956-cı ildə Ağcabədi rayonunda dünyaya göz açıb. 1973-cü ildə orta məktəbi bitirib, həmin ildə də Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsinə daxil olur. Ali təhsilini başa vurub 1977-ci ildə doğulduğu rayonda müəllimlik edib. 1985-ci ildə ADPİ-nin "Riyaziyyatın tədrisi metodikası" kafedrasının nəzdində aspiranturaya daxil olub. 1990-cı ildə namizədlik dissertasiyasını müdafiə edərək pedaqoji elmlər namizədi (riyaziyyat ixtisası üzrə) alimlik dərəcəsini alıb. 1995-2000-ci illərdə doğma



bildiyi institutda müəllim, baş müəllim vəzifələrində çalışıb.

Ömrünün sonuna kimi Azərbaycan Dövlət İqtisad İnstitutunda işləyib. 1 dərs vəsaitinin, 32 elmi və 2 metodik məqalənin müəllifidi. Ailəli olub, 2 ovladı var. Onun bitib-tükənməyən arzu dolu ürəyi iyulun 4-də qəflətən dayandı.

Bax, belə. Tarixi rəqəmlərlə yol yoldaşı olan Vaqif müəllim gözəl ailə başçısı olub. Mehriban, qayğıkeş, nurlu siması ilə hamının hörmətini qazanan Vaqif müəllimin ömür yolu, beləcə, tamamlandı. Onun xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Ailəsinə, yaxınlarına dərin hüznlə başçağlığı verərək "Yerin cənnətlik olsun, Vaqif müəllim!" deyirəm.

İlahə Məmmədova